# AYRI-SEÇKİLİK NƏDİR VƏ BUNUNLA BAĞLI NƏ ETMƏK OLAR?

## MƏLUMAT KİTABÇASI




Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

Ayri-seçkilik nədir və bununla bağli nə etmək olar?
Məlumat kitabçasi

Bu broşura Avropa İttifaqı və Avropa Şurası tərəfindən maliyyələşdirilən Yaxşə İdarəçilik üçün Tərəfdaşlıq Proqramı II "Şərq Tərəfdaşlığı ölkələrində ayrı-seçkiliyin, nifrət zəminində törədilən cinayətin və nifrət nitqinin qurbanları üçün ədalət mühakiməsinə çıxış imkanlarının gücləndirilməsi" layihəsi çərçivəsində hazırlanmışdır. Burada səslənən fikirlər heç bir şəkildə hər iki tərəfin rəsmi mövqeyini əks etdirə bilməz.

Mətnin mahiyyəti, əhatə dairəsi və ya məzmununun bütövlüyü qorunub saxlanıldığı, çıxarış kontekstdən kənar istifadə edilmədiyi, natamam məlumat verilmədiyi və ya başqa şəkildə oxucunu səhv istiqamətləndirmədiyi halda, kommersiya məqsədləri istisna olmaqla çıxarışların (500 sözə qədər) çoxaldılmasına icazə verilir. Mənbə mətni həmişə "Avropa Şurası, nəşr ili" kimi qəbul edilməlidir. Sənədin hamısının və ya bir hissəsinin çoxaldılması / tərcüməsi ilə bağlı bütün digər istəklər, Avropa Şurasının Kommunikasiyalar üzrə Baş Direktoratlığına (F-67075 Strasbourg Cedex və ya publishing@coe.int) göndərilməlidir.

© Avropa Şurası, İyul, 2021. Bütün hüquqlar qorunur. Şərtlər daxilində Avropa İttifaqına lisenziyalıdır.



# AYRI-SEÇKİLİK NƏDİR VƏ BUNUNLA BAĞLI NƏ ETMƏK OLAR?

Ayrı-seçkilik o zaman baş verir ki, hansısa obyektiv və ya ağlabatan əsaslandırma olmadan bir şəxsə digərlərindən fərqli münasibət göstərilir.

İnsanlar ayrı-seçkiliyə öz yaşına, əlillik vəziyyətinə, etnik mənsubiyyətinə, mənşəyinə, siyasi fikirlərinə, irqi, dini və cinsi mənsubiyyətinə, dilinə, mədəniyyətinə və digər səbəblərə görə məruz qala bilərlər. Çox zaman qərəzli fikirlər nəticəsində yaranan ayrı-seçkilik insanları gücsüz edir, onların aktiv olmasına mane olur, onların öz bacarıqlarını inkişaf etdirmələrini məhdudlaşdırır. Ayrı-seçkilik həmçinin insanların xidmətlərə və hüquqlarına çıxış imkanlarını məhdudlaşdırır.

## Ayrı-seçkilik insan hüquqları pozuntusu kimi

Bərabərlik və ayrı-seçkililiyin olmaması prinsipləri Ümumdünya İnsan Hüquqları Bəyannaməsində müəyyən edilmişdir:

**"Bütün insanlar öz ləyaqətləri və hüquqları etibarilə azad və bərabər doğulurlar"** (Maddə 1).



Bu bəyannamənin 2-ci Maddəsi ayrı-seçkilikdən azadlığı təmin edir. Azərbaycanın da tərəfdaş dövlət olduğu Avropa İnsan Haqları Konvensiyası da ayrıseçkiliyi qadağan edir.

# BİRBAŞA VƏ DOLAYI AYRI-SEÇKİLİK

Ayrı-seçkilik **BİRBAŞA VƏ YA DOLAYI** yolla tətbiq oluna bilər. Birbaşa ayrı-seçkilik bir insana və ya qrupa qarşı ayrı-seçkilik etmək niyyəti ilə xarakterizə olunur. Məsələn, bir işəgötürmə idarəsi eyni səriştəliliyə malik olsalar da, gənc kişinin deyil qadının müraciət ərizəsindən imtina edirsə və ya hər hansısa bir mənzil şirkəti immiqrantlar üçün mənzilləri kiraya vermirsə, bu ayrı-seçkilik birbaşa baş verir.






Dolayı ayrı-seçkilik isə neytral bir mühitdə hər hansı bir meyara və ya təcrübəyə uyğun olaraq müəyyən bir qrupun nümayəndələrini başqalarına nisbətən daha az əlverişli şəraitlə təmin etməklə bağlıdır. Dolayı ayrı-seçkiliklə əlaqəli nümunələr yanğınsöndürənlər üçün minimum boy hündürlüyü meyarından (qadınlar bu səbəbdən kişilərə nisbətən daha çox istisna edilir) başlarını örtən insanları (hicablılar) işə götürməyən ticarət mərkəzlərinə qədər dəyişə bilər.

Dildə neytral görünən bu qaydalar əslində müəyyən sosial qruplar üçün qeyri-mütənasib əlverişsiz şəraitə səbəb ola bilər. İnsan hüquqları alətlərinə görə birbaşa və dolayı ayrı-seçkiliyin hər ikisi qadağandır.

# HÜQUQİ VASİTƏLƏR

Azərbaycan Respublikası Konstitusiyanın 25-ci maddəsi Bərabərlik hüququ adlanır. Bu Maddəyə əsasən, dövlət hər kəsin qanun və məhkəmə qarşısında bərabərliyinə, habelə hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. Eyni zamanda, heç kim hər hansı səbəbə görə ayrı-seçkiliyə məruz qala bilməz. Cinayət Məcəlləsinin 154-cü maddəsinə əsasən bərabərlik hüququnun pozulmasına görə hüquqi məsuliyyət müəyyən olunub. Hər hansı şəxsə qarşı ayrı-seçkiliyin edilməsi və bu zəmində zərərin vurulması cinayət məsuliyyəti yaradır. Ayrı-seçkiliyə məruz qalmış şəxs bununla bağlı Ombudsmana və ya məhkəməyə müraciət edə bilər.









## QHT-lərin rolu

Ayrı-seçkilik qurbanları, bu halla bağlı nə edəcəkləri barədə məlumat verə bilən və ya hüquqi məsləhəti təmin edə bilən vətəndaş cəmiyyəti təşkilatlarına da müraciət edə bilərlər. Vətəndaş cəmiyyəti qurumlarının ictimai nəzarət, ictimai maraqların müdafiəsi funksiyaları imkan verir ki, onlar ayrı-seçkilik hallarının cəmiyyətdə qarşısının alınması üçün konkret təşviqat aparsınlar.




## Bərabərlik Platforması Azərbaycan

"Bərabərlik Platforması Azərbaycan" ayrı-seçkiliyə qarşı mübarizə aparmaq istəyən şəxsləri dəstəkləyə biləcək QHT nümayəndələrindən və fərdi ekspertlərdən ibarət qeyri-rəsmi platformadır.

Equality-Platform-Azerbaijan-107823254728337

**Bu broşürada ayrı-seçkiliyin nə olması, onun formaları və ayrı-seçkilik halları baş verdikdə Azərbaycanda insanların nə edə biləcəkləri izah olunur.**

AZE

Avropa Şurası qitənin aparıcı insan hüquqları təşkilatıdır. O, 47 üzv dövlətdən ibarətdir, Avropa İttifaqının bütün üzvləri də buraya daxildir. Avropa Şurasına üzv olan bütün dövlətlər İnsan hüquqları haqqında Avropa Konvensiyasını imzalamışlar. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə insan hüquqları, demokratiya və qanunun aliliyinin qorunması üçün hazırlanmış bu Konvensiyanın yerinə yetirilməsinə nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqının Üzv Dövlətləri öz biliklərini, resurslarını və talelərini bir-birinə bağlamağa qərar veriblər. Birlikdə bu dövlətlər mədəni müxtəliflik, tolerantlıq və fərdi azadlıqları qoruyub saxlamaqla sabitlik, demokratiya və davamlı inkişaf zonası qurublar. Avropa İttifaqı, əldə etdiyi uğurları və dəyərlərini sərhədləri xaricindəki ölkələrlə və xalqlarla bölüşməyə sadiqdir.

**www.europa.eu**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe